**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI**

# Auditdə innovasiyalar və innovasiya tətbiq olunan müəssisələrdə audit üzrə proqram və prosedurlar


**Tərtib etdi:**
**Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri - N.Talıbov**

**Rəyçilər:**
**Auditin innovativ inkişafi, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi - Qoşqar Əhmədov**

**ANR AUDİT MMC-nin direktoru, auditor-Namiq Abbaslı**



**BAKI, 2022**

**Mündəricat**

GİRİŞ.................................................................................................3
İnnovasiya, İnnovasiya məhsulu və innovasiya fəaliyyəti anlayışları.....3
İnnovasiyalarla bağlı auditor xidmətlərinin göstərilməsində məqsəd.....4
İnnovasiyalı müəssisələrin maliyyə hesabatlarının auditi........................4
İnnovasiyalı müəssisələrin maliyyə hesabatlarının auditi üzrə proqram 4
İnnovasiya məhsulu və innovasiya fəaliyyəti üzrə əlaqəli auditor xidmətlərinin göstərilməsi....................................................................7
İnnovasiya auditinin tətbiqi istiqamətləri..............................................10
Auditdə innovasiyalarn tətbiqi istiqamətləri.........................................14
İnnovasiya, innovasiya məhsulu və innovasiya fəaliyyəti üzrə auditor xidmətlərinin göstərilməsində auditorların vəzifələri...........................18
İnnovasiya, innovasiya məhsulu və innovasiya fəaliyyəti üzrə auditor xidmətlərinin göstərilməsinin normativ hüquqi əsasları və metoloji bazası.................................................................................................19
Məlumat bazası.........................................................................................20
İstifadə olunmuş ədəbiyyat.................................................................20

**LAYİHƏ**

**Azərbaycan Respublikası**
**Auditorlar Palatası Şurasının**
**2022-ci il _________ tarixli __/_**
**nömrəli qərarı ilə təsdiq edilmişdir**

## Auditdə innovasiyalar və innovasiya tətbiq olunan müəssisələrdə audit üzrə proqram və prosedurlar

## GİRİŞ

Qlobal geosiyasi, maliyyə sistemində texnoloji və potensial struktur dəyişiklikləri imkanları, kapital bazarlarının inkişafı, elektron ticarət, rəqəmsal iqtisadiyyat, qloballaşmanın strateji nəticələri və digər mühüm məsələlərlə yanaşı, dördüncü sənaye inqilabının vacib tərkib elementlərindən olan blokçeyn və kriptovalyuta kimi yeni texnologiyaların ərsəyə gəlməsi innovasiyalı müəssisələrin maliyyə hesabatlarının auditini, innovasiya məhsulu və innovasiya fəaliyyəti üzrə əlaqəli auditor xidmətlərinin göstərilməsini, innovativ auditi və auditdə innovasiyaların tətbiqini zəruri etmişdir.

Bu sənəd "Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasının (2021- 2030-cu illər)" 5.4-cü "Rəqəmsal iqtisadiyyat şəraitində auditor fəaliyyətində innovasiyaların tətbiqi istiqamətləri" bölməsinə, "Auditin innovativ inkişaf konsepsiyası"na və Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 2.1-ci "İnnovasiyada auditin tətbiqi istiqamətləri üzrə Proqram və prosedurların hazırlanması" maddəsində nəzərdə tutulmuş vəzifələrin icrası ilə əlaqədar hazırlanmışdır.

### İnnovasiya, İnnovasiya məhsulu və innovasiya fəaliyyəti anlayışları

Azərbaycan İqtisadçılar İttifaqının "Böyük İqtisadi Ensiklopediya"sında (Bakı, 2013, III cild, səh.9) "İnnovasiya" anlayışı belə verilmişdir: "İnnovasiya (lat.innovare) - Texnika və texnologiyanın yeni növlərini təmin edəcək bir proses kimi vəsaitlərin iqtisadiyyatda yerləşdirilməsi. Geniş mənada innovasiya elmi-texniki, intellektual potensialı səfərbər edərək, səmərəliliyi və digər iqtisadi fərqlənmələrə nail olmanı əhatə edən tədbirlər sistemi". Həmin Ensiklopediyada "Innovasiya məhsulu -müxtəlif səviyyədə texnoloji dəyişikliklərə məruz qalmış məhsul" kimi təsnifləşdirilmişdir. Beləliklə, bu baxımdan innovasiya fəaliyyəti - bu növ məhsulun istehsalı ilə baglı göstərilən fəaliyyətdir.

İnnovasiya məhsulu və innovasiya fəaliyyəti üzrə auditor xidmətləri göstərilən zaman auditor nəzərə almalıdır ki, innovasiya məhsulu əsasən 2 növ innovasiyanın - Texnoloji innovasiya və Əmtəə (məhsul) innovasiyası nəticəsində yaradılır:

- Texnoloji innovasiya - yeni  və ya mövcud olan məhsulun, malın, texnikanın istehsalı, habelə texnoloji proseslərin yaradılması və ya təkmilləşdirilməsidir (İstehsalın təşkili və idarə edilməsi sahəsindəki yeniliklər texnoloji innovasiya sayılmır).
- Əmtəə (məhsul)  innovasiyası - yeni və faydalı xüsusiyyətləri olan məhsulların istehsalıdır.

İnnovasiya fəaliyyəti isə sosial, təşkilati və marketinq innovasiyalarını əhatə edir.

- Sosial (proses) innovasiya - cəmiyyətin yenidən qurulmasında insan həyatının fəaliyyət sahələrinin yenilənməsi prosesidir (pedaqogika, idarəetmə sistemi, xeyriyyəçilik, xidmət, proseslərin təşkili).
- Təşkilati innovasiya - idarəetmə sisteminin təkmilləşdirilməsidir.
- Marketinq innovasiya - məhsulların dizaynı və qablaşdırılmasında əhəmiyyətli dəyişiklikləri əhatə edən yeni və ya əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş marketinq metodlarının tətbiqi, yeni satış metodlarının istifadəsi və məhsulların (xidmətlərin) təqdimatı, satış bazarlarına təqdim edilməsi və təşviqi, yeni qiymət strategiyalarının formalaşdırılmasıdır.

## İnnovasiyalarla bağlı auditor xidmətlərinin göstərilməsində  məqsəd

İnnovasiya məhsulu və innovasiya fəaliyyəti üzrə auditor xidmətləri göstərilməsinin məqsədi  nəticə etibarilə istehsalın, xidmətlərin göstərilməsinin, işlərin görülməsinin səmərəliliyinin yüksəldilməsinə dəstək verilməsidir.

Yeni dövrün çağırışları, iqtisadiyyatda innovasiyaların tətbiqinin hədsiz dərəcədə genişlənməsi və sənayedə, kənd təssərüfatında, xidmət sahələrində, neft-qaz sənayelərində və digər sahələrdə innovasiyaların geniş tətbiqi həmin sahələrdə auditin əhəmiyyətini artırır.

Bu tövsiyələr:

- İnnovasiyalı müəssisələrin maliyyə hesabatlarının auditini;
- İnnovasiya məhsulu və innovasiya fəaliyyəti üzrə əlaqəli auditor xidmətlərinin göstərilməsini;
- İnnovativ auditi və
- Auditdə innovasiyaların tətbiqini əhatə edir.

**İnnovasiyalı müəssisələrin maliyyə hesabatlarının auditi**

İnnovasiyalı müəssisələrdə auditin tətbiqi həm maliyyə hesabatlarının auditində, həm də əlaqəli auditor xidmətlərinin göstərilməsində mühüm əhəmiyyət kəsb edir. Audit sifarişçisi tətbiq etdiyi innovasiyaların mühasibat uçotunda və maliyyə hesabatlarında düzgünlüyünə, onların səmərəliliyinə əminlik əldə etmək üçün auditor tapşırığında müəyyən şərtlər irəli sürə bilər. Təcrübə göstərir ki, bu ilk növbədə özünü texnoloji innovasiya və əmtəə (məhsul) innovasiyasında

göstərir. Sosial, təşkilati və marketinq innovasiyaları isə adətən xüsusi tapşırıqlar üzrə əlaqəli auditor xidmətlərində özünü biruzə verir.

Nəzərə alınmalıdır ki, audit istifadəçiləri də Mülki Məcəlləyə müvafiq olaraq müəyyən təşkilati-hüquqi formalarda yaradılır. Auditorlar Palatasının Şurası tərəfindən ötən illər ərzində səhmdar cəmiyyətlərində, məhdud məsuliyyətli cəmiyyətlərdə auditin aparılmasına dair hazırlanmış sahəvi audit proramları təsdiq olunmuşdur. Eyni zamanda innovasiyalı müəssisələrin özlərinin konkret fəaliyyət sahələri mövcuddur. Palata tərəfindən belə sahələr də diqqətdən kənarda qalmamış, nəqliyyatda, tikintidə, turizmdə, kənd təsərrüfatında auditin aparılmasına dair sahəvi audit proramları , habelə xüsusi tapşırıqlar (əməliyyatlar) şəraitində (Vergi auditi, iflas və müflisləşmə, ixrac-idxal əməliyyatları, əmlakın qiymərləndirilməsi və s.) auditə dair metodiki vəsaitlər hazırlanmışdır ki, innovasiyalı müəssisələrin maliyyə hesabatlarının auditində bu sənədlərin tələbləri nəzərə alınmalıdır.

## İnnovasiyalı müəssisələrin maliyyə hesabatlarının auditi üzrə proqram

İnnovasiyalı müəssisələrin maliyyə hesabatlarının auditi zamanı auditor:

- müvafiq audit prosedurlarını müəyyənləşdirməlidir,
- planlaşdırma tərtib olunmalıdır,
- lazımı məlumatları sorğulamalıdır,
- audit sübutlarını, təsdiqləmələri əldə etməlidir,
- riskləri qiymətləndirməlidir,
- əhəmiyyətli sahələri aydınlaşdırmalıdır,
- risklərə qarşı cavab tədbiqlərini həyata keçirməlidir və
- auditin nəticəsi üzrə təkliflər verilməlidir.

İnnovasiyalı müəssisələrin maliyyə hesabatlarının auditi müəyyən mərhələlər üzrə aparılmalıdır. Bunlar aşağıdakılardır:

- İlkin mərhələ;
- Auditin planlaşdırılması mərhələsi;
- Auditin yerinə yetirilməsi mərhələsi;
- Auditin nəticəsi və təkliflər.

**İlkin mərhələdə:**

Tədbiq olunan BAS-lar: 210 (Audit tapşırığının şərtlərinin razılaşdırılması) saylı BAS-ın əsas tələbi : Auditorun məqsədi audit tapşırığını yalnız bu tapşırığın yerinə yetirilməsi üçün əsaslandırıldığı baza üzrə razılığa gəldiyi zaman qəbul etmək və ya davam etdirməkdir.

230 (Auditin sənədləşdirilməsi) saylı BAS-ın əsas tələbi Auditin sənədləşdirilməsi auditorun ümumi məqsədlərinə nail olması barədə çıxarılmış rəyə dair auditor tərəfindən göstərilən əsasın sübutu, habelə auditorun BAS-lara və tədbiq olunan qanun və qaydaların tələblərinə müvafiq şəkildə planlaşdırılıb aparılmasına dair sübutdur.

**Planlaşdırılma mərhələsi**

300 (Auditin planlaşdırılması) saylı BAS-ın əsas tələbi: Auditin planlaşdırılması tapşırıq üzrə ümumi audit strategiyasının müəyyən edilməsindən və audit planının hazırlanmasından ibarətdir.

**Yerinə yetirilmə (icra) mərhələsi**

330 (Qiymətləndirilmiş risklərə qarşı auditorun cavab tədbirləri) saylı BAS-ın əsas tələbi : Auditorun məqsədi qiymətləndirilmiş əhəmiyyətli təhriflər riski barədə, həmin risklərə qarşı müvafiq cavab tədbirləri hazırlayıb həyata keçirmək yolu ilə münasib audit sübutlarını əldə etməkdir.

250 (Maliyyə hesabatlarının auditi zamanı qanun və qaydaların nəzərə alınması) saylı BAS-ın əsas tələbi: Bu BAS-ın məqsədi qanun və qaydaların tələblərinə riayət edilməməsi nəticəsində maliyyə hesabatında əhəmiyyətli təhriflərə yol verilməsinin aşkar edilməsində auditora yardım etməkdir.

240 (Maliyyə hesabatlarının auditi zamanı dələduzluqla bağlı auditorun məsuliyyəti) saylı BAS-ın əsas tələbi

Audit aparan auditor maliyyə hesabatlarının istər dələduzluq, istərsə də səhv nəticəsində baş vermiş əhəmiyyətli təhriflərdən azad olması barədə ağlabatan əminlik əldə etməyə görə məsuliyyət daşıyır.

500 (Audit sübutu) saylı BAS-ın əsas tələbi

Auditorun məqsədi auditor rəyinin əsaslandırmaqdan ötrü məntiqi nəticələr çıxara bilmək məqsədilə yetərli münasib audit sübutu əldə etmək üçün audit prosedurlarını planlaşdırıb yerinə yetirməkdir.

505 (Kənar mənbədən təsdiqləmələr) saylı BAS-ın əsas tələbi

Audit sübutları müəssisədən kənarda müstəqil mənbələrdən əldə edildikdə onların dürüstlüyü artır.Auditorun birbaşa əldə etdiyi audit sübutları dolayı yolla və ya nəticə çıxarmaq yolu ilə əldə edilmiş audit sübutların nisbətən daha etibarlıdır.Kağız, elektron və ya digər daşıyıcıda olmasına baxmayaraq, sənədli şəkildə tərtib edilmiş audit sübutu daha etibarlıdır.

530 (Audit seçməsi) saylı BAS-ın əsas tələbi

Audit seçməsindən istifadə zamanı auditorun məqsədi seçmə elementlərinin götürüldüyü əsas məcmu ilə bağlı nəticə formalaşdırmaq üçün məntiqi əsası təmin etməkdir.

**Auditin nəticəsi və təkliflər mərhələsi**

Auditin nəticəsi və təkliflər mərhələsində auditor aşağıdakı BAS-ların tələblərinə əməl etməlidir:

700 saylı (düzəliş edilmiş) BAS: Maliyyə hesabatları haqqında rəyin formalaşdırılması və hesabat verilməsi

701 saylı BAS: Müstəqil auditorun hesabatında əsas audit məsələləri haqqında məlumatvermə

705 saylı (düzəliş edilmiş) BAS: Müstəqil auditorun hesabatında fərqli rəylər

706 saylı (düzəliş edilmiş) BAS: Müstəqil auditorun hesabatında izahedici paraqraf və digər məsələlər paraqrafı

710 saylı BAS: Müqayisəli məlumatlar: müqayisəli göstəricilər və müqayisəli maliyyə hesabatları

720 saylıBAS: Auditi aparılmış maliyyə hesabatlarını əks etdirən sənədlərdəki digər məlumatlar üzrə auditorun məsuliyyəti

805 saylı BAS: Xüsusi mülahizələr-ayrıca maliyyə hesabatlarının və ya maliyyə hesabatı xüsusi elementlarının, hesablarının və ya maddələrin auditi.

**Məlumat bazası**

Auditin həyata keçirilməsi üçün lazımı informasiya bazası olmalıdır, həmçinin müvafiq məlumatlar əldə edilməlidir.Məlumatların tam dəqiq əldə olunması haqqında metodiki vəsaitin sonrakı praktiki tədbiqi maddələrində geniş məlumatlar veriləcəkdir.Amma auditorların ilkin, planlaşdırma mərhələsində artıq informasiya bazası haqqında tam bilikləri olmalıdır.İnnovasiya auditi üçün əsasən aşağıdakı məlumat bazaları mövcuddur:

- Əməliyyatlar üzrə ilkin sənədlər;
- Mühasibat uçotu üzrə proqram təminatının registrləri;
- Hesablar üzrə dövriyyələr
- Dövriyyə-qalıq cədvəlləri,
- Sintetik və analitik hesabların açıqlamaları;
- kontragentlərin açıqlamaları;
- Uçot registrləri, manual aparılan qeydiyyat kitabları, jurnallar;
- Kənar mənbələrdən təsdiqləmələr ( İnternet bankinq, online məlumatlar, vergi və digər icbari ödəmələr üzrə rəsmi internet resurslarının girişə icazə ("Asan imza", "E-imza", OTP ) tələb olunan məlumatları).

## İnnovasiya məhsulu və innovasiya fəaliyyəti üzrə əlaqəli auditor xidmətlərinin göstərilməsi

Qeyd olunmalıdır ki, innovasiya məhsulu və innovasiya fəaliyyəti üzrə əlaqəli auditor xidmətlərinin göstərilməsi - "Əlaqəli Xidmətlər üzrə Beynəlxalq Standartlar" (ISRS) 4400 tətbiq olunmaqla, Maliyyə Məlumatları ilə bağlı Razılaşdırılmış Prosedurların üzrə Tapşırıq İSRE-lərin tətbiq edilməsinin meyarlarını müəyyən edən Keyfiyyətə Nəzarət, Audit, Təhlil, Təsdiqləmə və Əlaqəli Xidmətlər Üzrə Beynəlxalq Standartların ön sözü kontekstində nəzərə alınmalıdır.

Əlaqəli Xidmətlər üzrə Beynəlxalq Standartların (ISRS) məqsədi maliyyə məlumatları ilə bağlı razılaşdırılmış prosedurlar üzrə tapşırıq öhdəliyi götürdükdə auditorun peşəkar məsuliyyəti və bu cür tapşırıqlar ilə bağlı auditorun dərc etdiyi hesabatın forması və məzmunu ilə bağlı standartlar müəyyən etmək və istifadəçiləri təlimatla təmin etməkdir.

Bu ISRS maliyyə məlumatı ilə bağlı olan tapşırıqlara aiddir. Bununla belə auditorun müzakirə mövzusu ilə bağlı yetərli məlumatı olduqda və əsas məlumatlar ilə bağlı kafi meyarlar mövcud olduqda bu, qeyri-maliyyə məlumatı ilə bağlı tapşırıqlar üçün də faydalı təlimat ola bilər. Audit ilə bağlı Beynəlxalq Standartlar bu ISRS-nin tətbiq edilməsində auditor üçün faydalı ola bilər.

Razılaşdırılmış prosedurlar üzrə tapşırığa auditorun maliyyə məlumatının (məsələn, ödənilə bilən hesablar, aidiyyatı tərəflərdən alınmalar, iqtisadi subyektin alqı prosesləri və gəlirləri), maliyyə hesabatının (balans hesabları) və hətta maliyyə hesabatlarının ümumi komplektinin fərdi vahidləri ilə bağlı müəyyən prosedurlar yerinə yetirməsi aid ola bilər.

**Razılaşdırılmış prosedurlar üzrə tapşırığın məqsədi**

Razılaşdırılmış prosedurlar üzrə tapşırığın məqsədi auditorun auditor, iqtisadi subyekt və müvafiq üçüncü tərəf arasında razılaşdırılan audit prosesini keçirməsi və faktiki nəticələr ilə bağlı hesabat verməsi üçün prosedurlar yerinə yetirməsidir.

Auditor razılaşdırılmış prosedurlar üzrə əldə edilən faktiki nəticələr ilə bağlı hesabat təqdim etdiyi üçün, o heç bir informasiyanı təsdiq etmir. Əvəzində hesabat istifadəçiləri auditor tərəfindən hesabat verilən nəticələri və prosedurları özləri üçün dəyərləndirirlər və auditorun işindən özləri üçün nəticələr çıxarırlar.

Hesabat yerinə yetirilməli olan prosedurlar ilə bağlı razılığa gələn tərəflər üçün nəzərdə tutulur, çünki digər tərəflər prosedur səbəblərindən agah olmadıqlarına görə nəticələri səhv şərh edə bilərlər.

**Razılaşdırılmış prosedurlar üzrə tapşırığın ümumi məqsədləri**

Auditor Mühasiblər üçün Mühasiblərin Etika Standartları üzrə Beynəlxalq İdarə Heyəti tərəfindən hazırlanan və peşəkar mühasiblər üçün əsas prinsipləri ehtiva edən Peşəkar Mühasiblərin Etika Məcəlləsi (İESBA Məcəlləsi)-nə əməl etməlidir.

Auditor razılaşdırılmış prosedurlar üzrə tapşırığı bu ISRS və tapşırıq şərtlərinə müvafiq olaraq yerinə yetirməlidir.

**Tapşırığın şərtlərinin müəyyən edilməsi**

Auditor iqtisadi subyektin təmsilçisi və eyni zamanda hesabatın nüsxəsini qəbul edəcək müəyyən edilmiş üçüncü tərəf ilə razılaşdırılmış prosedurlar üzrə tapşırığın şərtlərinin aydın şəkildə başa düşülməsini təmin etməlidir. Razılaşdırılmalı məsələlərə aşağıdakılar daxildir:

• yerinə yetirilən prosedurların audit və təfərrüatlı yoxlama olmaması və buna görə auditorun də heç bir məlumatın düzgünlüyünü təsdiq etməməsi faktı da daxil olmaqla tapşırığın mahiyyəti.

• tapşırıq üçün bəyan edilən məqsəd.

• Razılaşdırılmış prosedurların tətbiq edilməli olduğu maliyyə məlumatının müəyyən edilməsi.

• konkret prosedurların xarakteri, müddəti və həcmi.

• faktiki nəticələr ilə bağlı hesabatın nəzərdə tutulan forması.

• faktiki nəticələr ilə bağlı hesabatın açıqlanmasında məhdudiyyətlər. Bu cür məhdudiyyətlər qanunvericiliyin tələbləri (əgər mövcuddursa) ilə uyğunsuzluq təşkil etdikdə auditor tapşırığı qəbul etməməlidir.

Xidməti məktuba daxil edilməli olan məsələlərə aşağıdakılar daxildir:

• tərəflər arasında razılaşdırılmış prosedurların yerinə yetirilməsi.

• faktiki nəticələrin əks olunduğu hesabatın açıqlanmasının yerinə yetirilməli olan prosedurlar ilə bağlı razılığa gəlmiş tərəflər arasında məhdudlaşdırılması ilə bağlı məlumat.

**Planlaşdırma**

Auditor tapşırığın səmərəli yerinə yetirilməsi üçün işi planlaşdırmalıdır.

Auditin planlaşdırmasına aşağıdakılar kömək edir:

- auditin vacib sahələrinə lazımi diqqət yetirilməsi;
- potensial problemlərin müəyyənləşdirilməsi;
- işlərin səmərəli və vaxtında optimal xərclərlə yerinə yetirilməsi;
- iauditdə iştirak edən mütəxəssislər qrupunun üzvləri arasında işlərin səmərəli şəkildə bölüşdürülməsi və bu işlərin koordinasiyası;
- auditorların və digər mütəxəssislərin işinin koordinasiyası.

Audit planlaşdırarkən aşağıdakı mərhələlər ayrılır:

- ilkin audit planlaşdırması;
- ümumi audit planının hazırlanması və tərtib edilməsi;
- audit proqramının hazırlanması.

**Sənədləşdirmə**

Auditor faktiki nəticələrin əks olunduğu hesabat üçün əhəmiyyətli olan məsələləri və tapşırığın bu İSRS-ə və tapşırıq şərtlərinə müvafiq olaraq yerinə yetirilməsi ilə bağlı dəlilləri sənədləşdirməlidir.

**Prosedurlar və Sübutlar**

Auditor faktiki nəticələrin əks olunduğu hesabat üçün əsas kimi razılaşdırılmış prosedurları yerinə yetirməli və əldə edilən sübutları istifadə etməlidir.

Razılaşdırılmış prosedurların yerinə yetirilməsi üçün tətbiq olunan prosedurlara aşağıdakılar misal olaraq verilə bilər:

• sorğu göndərilməsi və təhlil;

• hesablamaların yenidən aparılması, müqayisə və yazılışların dəqiqliyinin digər yoxlanılması;

• müşahidə;

• yoxlama;

• təsdiqləmələrin əldə edilməsi.

**Hesabatın verilməsi**

Razılaşdırılmış prosedurlar üzrə tapşırıq ilə bağlı hesabatda istifadəçinin yerinə yetirilən işin xarakteri və dərəcəsini başa düşməsi üçün tapşırığın razılaşdırılmış prosedurları və məqsədi təfsilatlı şəkildə izah edilməlidir.

Hesabata aşağıdakılar daxil edilməlidir:

(a) Başlıq;

(b) Göndərilən ünvan (adətən razılaşdırılmış prosedurları yerinə yetirmək üçün auditoru işə cəlb edən müştəri);

(c) razılaşdırılmış prosedurların tətbiq edildiyi spesifik maliyyə və qeyri-maliyyə məlumatlarının müəyyən edilməsi;

(d) yerinə yetirilən prosedurların müştəri ilə razılaşdırılmış olması haqqında bəyanat;

(e) Tapşırığın razılaşdırılmış prosedurlar üzrə tapşırığa tətbiq edilə bilən Əlaqəli Xidmət üzrə Beynəlxalq Standartlara və ya müvafiq milli standart və ya təcrübələrə müvafiq olaraq yerinə yetirilməsi haqqında hesabat;

(f) Lazım olarsa auditorun iqtisadi subyektdən müstəqil olmaması haqqında hesabat;

(g) razılaşdırılmış prosedurların yerinə yetirilmə məqsədinin müəyyən edilməsi;

(h) yerinə yetirilən spesifik prosedurların siyahısı;

(i) səhvlərlə bağlı təfsilatlar və müəyyən edilən istisnalar da daxil olmaqla auditorun əldə etdiyi faktların izahatı;

(j) yerinə yetirilən prosedurların audit və ya təhlil hesab edilməməsi və buna görə də heç bir əminliyin ifadə olunmaması ilə bağlı məlumat;

(k) Əgər auditor əlavə prosedurlar, audit və təhlil yerinə yetirmiş olsaydı, hesabatda daha artıq məsələlərin ortaya çıxma ehtimalının böyük olması haqqında hesabat;

(l) hesabatın ancaq yerinə yetirilməli olan prosedurlar haqqında razılığa gələn tərəflər üçün məhdudlaşdırılması haqqında məlumat;

(m) Hesabatın ancaq müəyyən edilən element, hesab, maliyyə və qeyri-maliyyə ilə əlaqəli olması və iqtisadi subyektin ümumilikdə maliyyə hesabatlarına aid olmaması haqqında məlumat;

(n) hesabatın tarixi;

(o) Auditorun ünvanı; və

(p) Auditorun imzası.

## İnnovasiya auditinin tətbiqi istiqamətləri

İnnovasiya auditi təşkilatın innovasiyaları nə dərəcədə effektiv idarə etdiyini və istifadə etdiyini anlamağın bir yoludur. Fərdi işçilərdən ideyaların necə yaradıldığı kimi innovasiyaların idarə edilməsinin müxtəlif aspektləri haqqında öz fikirlərini anonim şəkildə bildirmələri xahiş olunur. Əsas suallar innovasiyaların idarə edilməsinin beş meyarına görə bölünür: strategiya, ideyanın yaradılması, prioritetləşdirmə , həyata keçirilməsi və əməkdaşla, mədəniyyət, təşkilat. Bu, aşağıdakı diaqramda göstərilir:




1. Şirkətin innovasiya auditi haqqında qərarı;
2. İlkin mərhələ (komanda, strategiyaya uyğun büdcə, anket);
3. Müsahibə, məlumat və hesabat mərhələsi.

Addım 1. İnnovasiya auditi üçün şirkət həlli

Bütün yeni idarəetmə müdaxilələrində olduğu kimi, üst rəhbərlik innovasiya auditinin aparılmasına qərar verərkən öz hazırlığını açıq şəkildə bildirməlidir. Digər hallarda, innovasiya auditi qərarı şirkət böhranından irəli gələ bilər və ya rəhbər işçilərlə görüşün nəticəsi və ya beyin fırtınası sessiyası zamanı vurğulanan ideya ola bilər. Bundan əlavə, son onilliklər ərzində Avropanın rəqabət siyasəti innovasiyaların Kiçik və Orta Müəssisələr (KOM) üçün əsas prioritet olmasını təklif edir və KOM-larda innovasiyaları dəstəkləmək üçün bir çox faydalı alətlər təklif edilir. İnnovasiya auditi ideyasının mənşəyindən asılı olmayaraq (məsələn, böhran, strategiyanın formalaşdırılması, Avropa İttifaqının siyasəti və s. ) rəhbərlik tam şəkildə xəbərdar olmalı, innovasiya auditi prosesi qəbul edilməli və dəstəklənməlidir, lazımi vaxtı və bəzi hallarda büdcəni ayırmalıdır.

Addım 2. İlkin mərhələ (Komanda təşkili, uyğun strategiya və anket)

Komandanın yaradılması

İnnovasiya auditinə tez bir həll kimi baxmaq olmaz. Bundan maksimum yararlanmaq üçün prosesə yüngül yanaşmalı və komandanızın necə hazır olduğuna dair tapşırıqları paylamalısınız. Tələb olunan multiperspektivlərin daxil olmasını təmin etmək üçün innovasiyaların auditi qrupuna liderlərin daxil edilməsi şiddətlə tövsiyə olunur (innovasiya bütöv və ekoloji xarakter daşıyır). Şirkətiniz kimi real biznes mühitində innovasiya dinamikasını həll etmək üçün siz şirkəti real ekosistemlərə bənzər bir çox qarşılıqlı əlaqəli amillərin təsirinə məruz qalan canlı orqanizm kimi təhlil etməlisiniz. Bununla belə, bəzi hallarda, məsələn, şirkətin bir neçə bina və bölməsi olan və çoxlu sayda işçisi olan mürəkkəb strategiyası olduqda, bəzi təcrübəli innovasiya məsləhətçilərinin nou-hau tələb oluna bilər.

Strategiyanın uyğunlaşdirilmasi

Bu mərhələ innovasiya auditinin biznes strategiyasına uyğunlaşdırılmasını nəzərdə tutur. Mövcud strateji sənədlərin nəzərdən keçirilməsi bu mərhələ üçün ilkin şərtdir, çünki uğurlu olmaq üçün innovasiya auditi cari biznes strategiyası ilə yaxşı uyğunlaşdırılmalı və mövcud strateji boşluqları aradan qaldırmalıdır. Buna görə də, innovasiya auditi sorğusuna davam etməzdən əvvəl komanda üçün vacib addım strateji əhəmiyyətli sənədləri açıq müzakirə etmək, yüksək rəhbərliklə görüşlər keçirmək, şirkətin sektorunun mövcud vəziyyətini yoxlamaq və aşağıdakı kimi suallara cavab verməyə çalışmaqdır:

1) Hazırkı rəqabət qüvvələri hansılardır?

2) Hansı elementlər bizi rəqabətədavamlı edir?

3) Rəqib haqqında nə bilirik?

4) Müştərilər, məhsullar və işçi heyətlə bağlı keçmişdə hansı mühüm problemlərimiz olub?

5) Hansı məhsul və ya xidmətin təşviq edilməsi lazımdır və s.

Növbəti addım “Nə etməliyik?” sualına cavab verməkdir. Verilən suala cavab vermək üçün müəyyən bir suala cavab verərkən alınan təhlillərdən ibarət olacaq bir struktur qurmaq lazımdır.

Anket

Bu mərhələdə, innovasiya audit sorğusu şirkətin xüsusi ehtiyaclarına uyğun olaraq tərtib edilir və fərdiləşdirilir. Anketə dəyişiklik etməzdən əvvəl mənbəyə əməl etməli və

anketə orijinal formada baxmaq lazımdır. Bundan əlavə, “strategiyanın uyğunlaşdırılması” mərhələsində innovasiya auditi qrupu yeni məlumatlar və innovasiya auditinin daha fərdiləşdirilmiş müsahibə/nəzərdən keçirilməsinə səbəb olacaq digər faydalı məlumatlar alacaq. Komanda yoxlanılacaq ən vacib sahələri seçməli, sualları düzgün tərtib etməli, şirkət terminologiyasından istifadə etməli və anketi yoxlamaq üçün pilot müsahibələr təşkil etməlidir.

Addım 3. Müsahibə, məlumatların təhlili və hesabat mərhələsi (fəaliyyət planı)

Müsahibə

Audit qrupu əvvəlcədən, bir neçə işçi ilə müsahibələr planlaşdırmalıdır. Bu cür müsahibələr respondentlərə dürüst cavab verməyə kömək edəcək şəkildə aparılmalıdır.

Təhlil

Məlumatların təhlili və məlumatların qiymətləndirilməsi, bu addım vacibdir və bəzi mühüm innovasiya amillərinin tendensiyalarını (müsbət və ya mənfi xüsusiyyətlərin hədəflənməsi) müəyyən etmək üçün statistikanın əsas nou-hau və ya daha yaxşı sadə cədvəl tələb edir. Bəzi hallarda əlavə statistika tələb oluna bilər. Burada istifadə olunan statistik metodologiyalar müxtəlif sualların cavablandırıldığı məlumat formatına əsaslanır. Bununla belə, bir çox hallarda, sadəcə olaraq, orta cavab dərəcəsi kimi bəzi çox sadə statistikadan istifadə etməklə, innovasiya ilə bağlı mümkün problemlərin aydın göstəriciləri ola bilər. Şirkət statistikasının təhlili və tərtibi ən vacib mərhələlərdən biridir, çünki düzgün aparılmış təhlil sayəsində şirkət (təşkilat) daha çox fayda əldə etmək üçün nə edilməli olduğunu başa düşə biləcək.

Müəssisədə innovasiyanın səviyyəsini müəyyən etmək üçün hazır sorğu anketi verilir. Bu sorğu anketi sahənizin ixtisasından asılı olaraq dəyişdirilə bilər.

| 1. İnnovasiya strategiyası |
|---|
| 1. Rəhbərləriniz innovasiya siyasətini müəyyən etmək və innovativ investisiya qərarlarını dəstəkləmək üçün xüsusi olaraq görüşürlərmi? |
| 2. Mən sizin əsas innovasiya strategiyanızı görürəmmi (məsələn, bazara ilk çıxan və ya sürətli satıcı)? |
| 3. Bütün biznesinizə aid olan innovasiyanın aydın/xüsusi tərifiniz varmı? |
| 4. Əsas bazar tendensiyalarını və sürücüləri (məsələn, demoqrafik göstəricilər, qaydalar, dəyişən ehtiyaclar, yeni texnologiyalar və s.) müəyyən etmək üçün əməliyyat mühitinizi fəal şəkildə izləyirsinizmi? |
| 5. İnnovasiya strategiyanız innovasiyaların idarə edilməsinin bütün beş sahəsini (ideyalar, prioritetləşdirmə, həyata keçirmə, insanlar və strategiya) birləşdirirmi? |
| 6. İnnovasiya strategiyasının daha aydın və effektiv olması üçün yüksək səviyyəli rəhbərlik nə etməlidir? |

| 2. İdeyaların yaradılması |
|---|
| 1. Bütün şöbələrinizdə və funksiyalarınızda ümumi iqlim ideyanın yaradılması prosesini dəstəkləyirmi ? |
| 2. Siz öyrənmək və digər təşkilatlarla təcrübə mübadiləsi imkanlarından (“açıq |

| |
|---|
| innovasiya”) istifadə edirsinizmi? |
| 3. Problemin həlli üçün strukturlaşdırılmış yanaşmalardan (beyin fırtınası, TRIZ, ssenari hazırlamaq və s.) istifadə edirsinizmi? |
| 4. Müştərilərin açıqlanmış və gizli ehtiyaclarını fəal şəkildə araşdırır, müəyyən edir və ələ keçirirsinizmi? |
| 5. Sizi yaradıcı təşkilat kimi qəbul edirlər? |
| 6. Təşkilatımızda ideyanın yaradılması prosesini təkmilləşdirmək üçün nə etmək lazımdır? |

| 3. Prioritetləşdirmə |
|---|
| 1. Təşkilatda ideyaların yoxlanılması və qiymətləndirilməsi üçün xüsusi bir sistem (xüsusi tədbirlərdən fərqli olaraq) varmı? |
| 2. Portfelinizin layihə seçimi və prioritetləşdirmə prosesi innovasiya strategiyanızla aydın şəkildə əlaqələndirilirmi? |
| 3. Qiymətləndirmə üsullarından səmərəli istifadə edirsinizmi? |
| 4. Qarşıya qoyulan vəzifələri obyektiv təhlil etməyə imkan verən innovasiya riski haqqında aydın və ümumi anlayışınız varmı? |
| 5. Cari portfelimiz Cari portfeliniz balanslaşdırılmışdırmı (yəni, layihələr innovasiya strategiyasına uyğundur, dəyəri maksimuma çatdırır və mövcud resurslardan ən səmərəli istifadə edir)? |
| 6. Təşkilatımızın düzgün layihələrə üstünlük verməsi üçün nə etmək lazımdır? |

| 4. Bölmənin icrası |
|---|
| 1. Sistematik yeni məhsul və ya yeni xidmət inkişaf prosesiniz varmı. Addımlarınız bağlıdır və hərəkətlər bir-birinə paralel baş verirmi? |
| 2. Müştəri və son istifadəçi məlumatlarının proses boyu istifadə olunmasını təmin edə bilərsinizmi? |
| 3. Yeni məhsulları tez və səmərəli şəkildə inkişaf etdirməyinizi təmin etmək üçün kifayət qədər ETİ, istehsal, satınalma və dəstək imkanlarının olduğundan əminsinizmi? |
| 4. Biznes modeli üçün uzunmüddətli (biznes) çempionunuz varmı? |
| 5. Yeni məhsul və xidmətlərin siyahısı əsas rəqiblərimizlə müqayisədə qənaətbəxşdirmi? |
| 6. Biznes modelləri inkişaf etdirmə üsulunu yaxşılaşdırmaq üçün nə edilməlidir ? |

| 5. İnsanlar və təşkilat |
|---|
| 1. Təşkilatınızın rəhbərliyi innovasiya mədəniyyətini fəal şəkildə yaradır və saxlayırmı? |

| |
|---|
| 2. İşçilərinizin innovativ və təşəbbüskar davranışı təşviq edilirmi, tanınırmı və/yaxud mükafatlandırılırmı? |
| 3. Siz pula qənaət edirsinizmi və kadrların innovativ fəaliyyətdə hazırlanmasını necə fəal şəkildə təşviq edirsiniz? |
| 4. İnnovasiya layihələrinə ayrılmış büdcəniz varmı və xüsusi innovasiya komandanız varmı? |
| 5. Təşkilatınızda "innovasiya mədəniyyətini" təkmilləşdirmək üçün nə etmək lazımdır? |

| 6. Nəticə |
|---|
| 1. Ümumi gəlirinizin nə qədəri yeni məhsullar və/və ya yeni xidmətlər hesabına yaranır? |
| 2. Son üç ildə bazara neçə yeni biznes modeli çıxarmısınız ? |
| 3. Texnoloji yenilikləriniz sayəsində məhsul və xidmətləriniz daha rəqabətli olurmu? |
| 4. Bazarlarınızda aparıcı innovator kimi tanınırsınız? |
| 5. İnnovasiyalar vasitəsilə əhəmiyyətli artım əldə etdinizmi? |
| 6. Müəssisənizdə innovasiyaların sayını artırmaq üçün nə etmək lazımdır? |

## Auditdə innovasiyalarn tətbiqi istiqamətləri

Auditdə innovasiyalarn tətbiqi istiqamətləri təhlil, məlumatların standartlaşdırılması, performansın təkmilləşdirilməsi və davamlı təminatla bağlı dörd sahədən ibarətdir:

Auditdə innovasiyalarn tətbiqi istiqamətləri

1) Auditin məlumat bazasının yaradılması;

2) Auditin məqsədlərinə çatmaq üçün İnnovasiyaların tətbiqini həyata keçirməyə qadir strukturun yaradılması;

3) Auditorların və mülkiyyətçilərin işlərinin yüngülləşdirə bilən Süni İntellektdən (Sİ) və İnformasiya Texnologiyalarından (İT) istifadə etməyə imkan verən proqramların yaradılması;

4) davamlı təminatları, nəzarətin davamlı monitorinqini və qabaqcıl təhlil üsullarını tətbiq etməyə imkan verən esse toplusunun hazırlanması.

Xarici ölkələrin süni intellekt və funksional istiqamətlər üzrə ekspertləri xüsusi süni intellekt proqnozu hazırlayıblar. Onu tərtib edərkən bu sahədə yaranan

tendensiyalar nəzərə alınıb. Onların  proqnozuna görə, növbəti illrdə avtomatlaşdırma riski yüksək olan iş yerlərinin payı cəmi 3% təşkil edəcək.

Süni intellektin dəyərliliyi, işçilərin üç əsas üsulla müəssisələrə daha çox dəyər verməsi imkanının yaradılmasındadır:

Köhnə texnologiyalar üçün çox mürəkkəb olan proseslərin avtomatlaşdırılması.

İdarəetmə qərarlarının səmərəliliyini artıran mütərəqqi intellektual sistemlərin inkişafı.

Biznes dəyəri yaratmaq üçün tarixi məlumatlarda meyllərin müəyyən edilməsi;

Süni intellektə əsaslanan sistem bütün bu funksiyaları skan edə, tendensiyaları və anomaliyaları aşkarlaya, bir çox əməliyyatları avtomatik yerinə yetirə və əlavə təhlil tələb edən mühüm problemlər barədə xəbər verə bilər. Süni intellekt həm də ehtimal olunan riskləri müəyyən edib izah edə və liderlərə təhlil etmək və kritik qərarlar qəbul etməkdə kömək etmək üçün verilənlərə əsaslanan proqnozlar yarada bilər. Eyni zamanda, süni intellekt texnologiyalarını yaxşı bilən əməkdaşlar yalnız düzgün alqoritmi seçmək və məlumatları hesablama modelinə yükləmək deyil, həm də nəticələrin düzgün təhlili yollarını bilməlidirlər. Onlar bilməlidirlər ki, alqoritmin nə vaxt qərar verməsi və nə vaxt bunu özləri etsinlər. Süni intellektin səmərəli istifadəsi həm də yaranan problemlərin həlli üçün müxtəlif şöbələrin qarşılıqlı əlaqəsini nəzərdə tutur. Bəzi irəli düşünən şirkətlər artıq süni intellekt və digər rəqəmsal texnologiyaların tətbiqi üçün genişmiqyaslı yenidən hazırlıq proqramları həyata keçirirlər. Bu cür proqramlar təkcə yeni bacarıqlar öyrətmək deyil, həm də digər həmkarları ilə işləmək və süni intellektlə qarşılıqlı əlaqədə olmağın vacibliyini vurğulayan bir şəkildə işçilərin mentalitetini dəyişdirmək məqsədi daşıyır.

Süni intellekt texnologiyalarından düzgün istifadə bir çox problemlərin həlli yoludur, yuxarıda qeyd etdiyimiz kimi, analizləri insandan daha sürətli və dəqiq yerinə yetirə bilir. Həmçinin, süni intellekt çox mühüm iqtisadi vasitədir, təkcə şirkətlərin və sahibkarların deyil, həm də dövlət qurumlarının problemlərinin həllində, ilk növbədə, bu texnologiya ölkədə kölgə iqtisadiyyatının səviyyəsini əhəmiyyətli dərəcədə azaltmağa kömək edəcək, əlavə olaraq, bu sistemin apardığı təhlillər (büdcə vəsaitlərinin düzgün qoyuluşu və xərclənməsi, hazırda hansı sahələrə daha çox ehtiyac duyulması və s.) sayəsində düzgün məsləhətlər verə bilir. Əslində, süni intellekt, əgər ona düzgün hərəkət alqoritmini versəniz, bu halda o, nəinki təhlillər apara, həm də müəyyən bir problemdə mühüm iqtisadi qərarlar qəbul edə biləcək.

Çox mühüm bir hadisə çat-botun yaradılması olardı. Əslində bu cür bot yaratmaq çox çətin proses deyil, bütün ehtiyacları qarşılayacaq bu botu (proqramı) yaratmaq üçün proqramçılar komandası və görmək istədiyini izah edə bilən peşəkar lazımdır.

Mövcud problemə və onu həll etməyin ən yaxşı yoluna diqqət yetirməklə, audit funksiyası inqilabi yanaşma ilə irəliyə doğru sıçrayışı edə bilər.

Auditorlar təkcə riskləri deyil, həm də korrupsiya hallarını azaltmaq üçün potensial risklərin artımını proqnozlaşdırmaq və mümkün nəticələr haqqında lazımi məlumatları audit komitəsinin üzvlərinə çatdırmaq üçün səlahiyyətlərə və texnologiyalara malik olmalıdırlar.

Auditdə innovasiyaların tətbiqi prosesini aşağıdakı mərhələlərə bölmək olar:

**1.** Təkliflər toplusundan innovasiyaların seçilməsi. Innovasiyaların məqsədindən və bir çox digər amillərdən asılıdır.

2. Layihənin planlaşdırılması. Seçilmiş layihənin tam təhlili.(Məqsədlər, vəzifələr, son tarixlər, xərclər). İnnovativ layihənin həyata keçirilməsi üçün planın tərtib edilməsi.

3. İşin təşkili formasının seçimi. Bütün növ zəruri işlərin yerinə yetirilməsi üçün təşkilati strukturun tərtib edilməsi.

4. Nəzarət. Vaxt və xərclərə nəzarət.

5. İnnovasiyaların kommersiyalaşdırılması. Malların bazarda və ya istehsalda yerləşdirilməsi.

Ümumiyyətlə, innovasiyaların tətbiqi aşağıdakı 5 amil "innovasiyanın yaradılması fraqmentləri" nəzərə alınmaqla həyata keçirilməlidir:
1.Harada, nə vaxt və necə yenilik ediləcəyi müəyyənləşdirilməlidir. Yeniliyin yaradılmasında ilk addım perimetrin fraqmentlərinin tapılmasıdır. Ümumi innovasiya meyarlarının seçimi şirkətin hara sərmayə qoyacağını, nə vaxt qəti addım atacağını və dəyərin yaradılmasını necə artıracağını müəyyən edir. İnnovasiya strategiyası bütün vacib suallara cavab verməlidir - hansı sahədə hərəkət etməli, oyuna nə vaxt daxil olmalı və necə qalib gəlməli. Təşkilat hansı innovasiyaların daha çox gəlir gətirəcəyini dəqiq bilməlidir.

2. Stereotiplərdən qaçılmalı və yenilik üçün bütün maneələri aradan qaldırlmalıdır. Tanış yanaşmadan imtina etmək və yeni bir şey öyrənmək istəməmək də çox vaxt innovasiyaların uğurla həyata keçirilməsinə mane olur.

3. Hər bir problem müxtəlif istiqamətlərdən öyrənilməlidir. Yalnız müştərilər və ya alıcılar haqqında məlumat adətən kifayət deyil. Uğurla innovasiya edən şirkətlər problemə bir neçə fərqli baxışı nəzərə almağa çalışırlar.

4. Balanslaşdırılmış innovasiya portfeli yaradılmalıdır. Portfelin idarə edilməsi uğurlu innovasiyanın vacib hissəsidir. Keyfiyyətli innovasiya portfelinin güclü tərəflərindən biri balansdır. Bu keyfiyyət riskləri idarə etməyə kömək edir və həmçinin yüksək menecmentə həm şirkətin mövcud güclü tərəflərini dəstəkləyən, həm də yeni inkişaf platformalarının hazırlanmasına imkan verən biznes konsepsiyalarını seçmək səlahiyyəti verir. Portfelin effektiv idarə olunması üçün mühüm amillər inkişaf mərhələsində olan layihələr haqqında şəffaf məlumatın mövcudluğu və adekvat fəaliyyət göstəricilərinin seçilməsidir.

5. Təşkilati model innovasiyaya adaptasiya edilməlidir. Son mərhələ təşkilatın özüdür, onsuz yuxarıda sadalanan bütün prinsipləri həyata keçirmək mümkün deyil. Optimal təşkilati struktur, proseslər və insan resursları konkret şirkətdən və innovasiyaların inkişaf etdirildiyi şəraitdən asılı olaraq fərqlənəcək. Ancaq bu şərtlər,

struktur və proseslər nə olursa olsun, şirkətlər innovasiyaları inkişaf etdirmək və həyata keçirmək üçün əvvəlcə qurulmalıdır. Bu prinsipi təcəssüm etdirmək üçün yuxarı rəhbərlik aktiv fəaliyyət göstərməlidir.

Bu strukturun yaradılması çox vaxt yeni kadrların axtarışını və mövcud kadrların yenidən bölüşdürülməsini tələb edir. Təşkilat strukturunu dəyişdirmək və işçiləri yeni layihələrə köçürmək istəyi vacibdir, çünki məhz bu istək müxtəlif şöbələr arasında əməkdaşlığı stimullaşdırır, yeni ideyaların birgə axtarışına və lazımi artımı təmin edən resursların yaradılmasına kömək edir.

Təşkilat modelinin sonuncu mühüm elementi innovasiyaların işlənib hazırlanmasında və tətbiqində uğur qazanmış işçilərin mükafatlandırılması və həvəsləndirilməsi sistemidir. Kompensasiya işçilərdən arzu olunan davranışı əldə etmək üçün güclü vasitədir, lakin göstəricilərin və ya stimulların yanlış seçimi gözlənilməz nəticələrə səbəb ola bilər. Məsələn, balanslaşdırılmış ölçülər dəsti əvəzinə performansa əsaslanan ölçülərə həddən artıq etibar etmək, biznesin tam inkişaf imkanlarına imkan verməyən qısamüddətli, artımlı təkmilləşdirmə zehniyyəti yarada bilər. Belə səhvlərə yol verməmək üçün şirkət tətbiq olunan fəaliyyət göstəricilərini tətbiq edilən yeniliklərin növlərinə uyğunlaşdırmalıdır. Xüsusilə, inkişafın əvvəlində radikal yenilikləri qiymətləndirmək üçün xalis cari dəyərdən istifadə aldadıcı dərəcədə dəqiq görünən rəqəmlər və yalançı inam təəssüratı yaradır. Eynilə, alternativlərin dəyərini təhlil etməməlisiniz ( variant dəyər təhlil ), qeyri-müəyyənlik şəraitində bir işi idarə edərkən, məhsul xəttini genişləndirmək barədə qərar qəbul etmək üçün aktualdır.

Əlbəttə ki, uğurlu innovasiyaların yaradılmasında daha çox maddələr var. Bununla belə, təsvir olunan 5 mərhələnin həyata keçirilməsi total innovasiyaya hazır olmaq üçün zəruri şərtdir.

İstiqamətlər üçün yetkinlik səviyyəsinin qiymətləndirilməsi üçün aşağıdakı meyarlar təqdim olunur:

| | Səviyyə 1 Əks-təsir | Səviyyə 2 Qəbul etmə | Səviyyə 3 Uyğunlaşma | Səviyyə 4 Ərizə | Səviyyə 5 İnkişaf |
|---|---|---|---|---|---|
| Strategiya və istək | İnnovativ fəaliyyət şirkətin taktiki çağırışlara və ya tənzimləyici/ bazar təzyiqinə cavabıdır. Çox vaxt onlar şirkətin konkret vəzifələrindən asılıdır. | Şirkət rəhbərləri strateji problemlərin həlli üçün innovasiya təşəbbüslərini müzakirə edirlər. | Rəhbərlik innovasiyanın vacibliyini ifadə edir, innovasiya üçün məsul şəxsləri təyin edir və innovasiya strategiyası və məqsədləri ilə bağlı müzakirələrdə iştirak edir. | İnnovativ fəaliyyət biznesin inkişafı və transformasiyası üçün əsas amillərdən biri kimi tanınır. İnnovasiyaların tətbiqi prosesinin formallaşdırılmış strategiyası və inkişaf istiqaməti. | Şirkət profil innovasiya bazarında əhəmiyyətli bir oyunçu kimi tanınır, sənayeyə əhəmiyyətli təsir göstərir. |
| Proseslər | Ayrı-ayrı | Komandalar | İnnovasiyala | Effektiv | İnnovasiya |

| | | | | | |
|---|---|---|---|---|---|
| və təcrübələr | şöbələr və komandalar rəsmiləşdiril məmiş proseslərdən istifadə edirlər. Yeni ideyaların axtarışına ümumi yanaşma strukturlaşdırı lmayıb və hər bir halda tətbiq edilir. | tez-tez ən yaxşı təcrübələri paylaşırlar, lakin bu, standart şirkət təcrübəsi deyil. Metriklər prosesin keyfiyyətini qiymətləndir ir, lakin nəticəni deyil. | rın tapılması və uyğunlaşdırıl ması üçün proseslər və alətlər rəsmiləşdirili r və şirkət daxilində tətbiq edilir. Fəal daxili bilik mübadiləsi var. Səmərəlilik əldə edilmiş biznes nəticələrinə əsasən qiymətləndir ilir . | innovasiyaya dəstək mühiti tətbiq edilib, proseslər kadrların cəlb edilməsinə və əsas qərarların sürətlə qəbuluna yönəlib. Yeniliklərin axtarışı prosesi kifayət qədər həcmdə maliyyələşdirili r. | rəsmiləşdiril miş prosesləri və müəyyən edilmiş rolları olan əsas biznes sahəsidir. Metriklər biznes məqsədlərinə çatmağa, innovasiyaları n tezliyini və uğurunu artırmağa yönəlib. |
| Etik davranış və kadrlar | Fərdi işçilər öz təşəbbüsləri ilə innovasiyaları dəstəkləmək üçün məsuliyyət daşıyırlar. Bütövlükdə korporativ mədəniyyət təşəbbüsü alqışlamır. | İnnovasiya və dəyişikliyin əhəmiyyəti rəhbərlik səviyyəsində qəbul edilir, lakin işçilərin dəyişiklik etmək cəhdi ümumi korporativ mədəniyyət tərəfindən qarşısını alır. | İşçilər və bütün şöbələr transformasi ya prosesində iştirak etməyə həvəslidirlər. Məsul işçilərin rolları müəyyən edilmişdir. | Hər bir işçinin yeniliklərin tətbiqi prosesində iştirak etmək imkanı var, daha təcrübəli işçilərdən mentorluq institutu təşkil olunub. İnnovasiyalar top menecment üçün əsas mövzudur. | Şirkət əsas diqqətini bazarda ən güclü insanları işə götürməyə yönəldir. İnnovativ korporativ mədəniyyətin inkişafı və heyətin düşüncə tərzinin transformasiy ası əsas gündəmdir. |

## İnnovasiya, innovasiya məhsulu və innovasiya fəaliyyəti üzrə auditor xidmətlərinin göstərilməsində auditorların vəzifələri

İnnovasiya, innovasiya məhsulu və innovasiya fəaliyyəti üzrə auditor xidmətlərinin göstərilməsində auditorların vəzifələri ilk növbədə bu növ məhsul və fəaliyyətin düzgün təsnifləşdirilməsi, mühasibat uçotunda və maliyyə hesabatlarında bu fəaliyyətin nəticələrinin düzgün əks edirilməsinə diqqət yetirməkdir.

Auditor məhsulun, işin, xidmətin maya dəyərinin düzgün formalaşdırılması, gəlirlərin müəyyənləşdirilməsi və real maliyyə nəticələrinin əldə olunması və sifarişçilərə təqdim olunması vasitəsilə mühüm iqtisadi qərarlar qəbul edilməsi üçün təməl yaratmalıdır. Auditin vəzifələri eyni zamanda aşağıdakılardan ibarətdir:

- Maliyyə hesabatlarının auditi və əlaqəli xidmətlərin göstərilməsi zamanı Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə əməl edilməsi;
- Beynəlxalq Mühasiblər Federasiyasının İSA, İSAE, İSRE, İSRS Beynəlxalq Standartlarının tələblərinə əməl edilməsi;
- Auditorlar Palatasının normativ, metodoloji və digər sənədlərinin yaratdığı öhdəliklərin yerinə yetirilməsi;
- Mühasibat uçotunun qüvvədə olan standartlara uyğun aparılmasına dair təkliflərin verilməsi;
- Bu sahəyə dair müvafiq maliyyə-mühasibat və vergi, habelə məcburi ödəmələr barədə məsləhətlərin verilməsi (xidmət müqaviləsində nəzərdə tutulan hallarda)

İnnovasiya, innovasiya məhsulu və innovasiya fəaliyyəti üzrə auditor xidmətlərinin göstərilməsində auditorlara qarşı tələblər Auditorlar Palatası Şurasının 18.11.2019-cu il tarixli 314/6 №-li qərarına əsasən hazırlanmış "Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə KONSEPSIYA"da ətraflı əks olunmaqla, əsasən aşağıdakılardan ibarətdir:

- Auditorların iqtisadiyyatda innovasiyaların geniş tətbiqi üçün bilik və vərdişlərinin gücləndirilməsi;
- Auditorların özlərinin audit prosedurlarını və metodologiyalarını qabaqcıl analitika, robototexnikanın avtomatlaşdırılmış prosesləri (RAP), süni intellekt (Sİ) və s. kimi alətlərin və texnologiyaların üstünlüklərini dərk edilməsi və real nəticələr əldə etmələri istiqamətində tədbirlərin həyata keçirilməsi;
- Mühasibat uçotu və audit sahəsində ali təhsil müəssisələrində tədris proqramlarının yeni dövrün çağırışları nəzərə alınmaqla təkmilləşdirilməsi;
- RAP instrumentlərinin və ya Sİ mexanizmlərinin müəyyən formalarından istifadə etməklə audit sistemləri ilə işləmək üçün audit prosedurlarının hazırlanması və tətbiqi;
- Auditorlar yeni texnologiya ilə bağlı olan riskləri müəyyənləşdirməyə kömək etməli və onun üstünlüklərindən istifadə etmək üsullarını axtarıb tapmalıdırlar;

- Auditorların və mühasiblərin elektron sənəd dövriyyəsi, habelə elektron imza, informasiyanın elektron daşıcıyında qorunub saxlanılması və s. məsələlərə aid normativ hüquqi aktlar üzərində işdə fəal iştrakına nail olunması.

**İnnovasiya, innovasiya məhsulu və innovasiya fəaliyyəti üzrə auditor xidmətlərinin göstərilməsinin normativ hüquqi əsasları və metoloji bazası**

İnnovasiya məhsulu və innovasiya fəaliyyəti üzrə əlaqəli auditor xidmətlərinin göstərilməsinin normativ hüquqi əsaslarını ilk növbədə Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Auditor xidməti" haqqında Azərbaycan Respublikasının Qanunu və auditlə əlaqədar müddəaların ehtiva olunduğu Azərbaycan Respublikasının qanunvericilik aktlarıdır. Auditorlar Palatası Şurası tərəfindən təsdiq olunmuş və ya bəyənilmiş metodik materialların, proqramların və qaydalarin tələblərinə əməl edilməlidir. İnnovasiyalarda auditin metodoloji bazasını isə Auditorlar Palatasının tam hüquqlu üzvü olduğu Beynəlxalq Mühasiblər Federasiyasının Beynəlxalq Audit Standartları, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə), habelə aşağıdakı sənədləri təşkil edir:

1. 4400 saylı Əlaqəli xidmətlər üzrə beynəlxalq standartlar. Maliyyə məlumatlari ilə bağlı razılaşdırılmış prosedurları üzrə tapşırıq.
2. 3420 sayli Təsdiqləmə tapşırıqları üzrə beynəlxalq standart. Emissiya prospektinə daxil edilmiş proforma maliyyə məlumatının tərtib edilməsi haqqında hesabat vermək üçün təsdiqləmə tapşırıqları.
3. 3400 saylı Təsdiqləmə tapşırıqları üzrə beynəlxalq standart. Perspektiv maliyyə məlumatlarının nəzərdən keçirilməsi.
4. 3000 saylı (düzəliş edilmiş) Təsdiqləmə tapşırıqları üzrə beynəlxalq standart. Tarixi maliyyə məlumatlarının auditi və ya təhlilindən başqa təsdiqləmə tapşırıqları.

**Məlumat bazası**

Auditin həyata keçirilməsi üçün lazımı informasiya bazası olmalıdır, həmçinin müvafiq məlumatlar əldə edilməli, auditorların ilkin, planlaşdırma mərhələsində artıq informasiya bazası haqqında tam bilikləri olmalıdır. İnnovasiya auditi üçün əsasən aşağıdakı məlumat bazaları mövcuddur:

- Əməliyyatlar üzrə ilkin sənədlər;
- Mühasibat uçotu üzrə proqram təminatının registrləri;
- Hesablar üzrə dövriyyələr
- Dövriyyə-qalıq cədvəlləri,
- Sintetik və analitik hesabların açıqlamaları;
- kontragentlərin açıqlamaları;
- Uçot registrləri, manual aparılan qeydiyyat kitabları, jurnallar;
- Kənar mənbələrdən təsdiqləmələr (İnternet bankinq, online məlumatlar, vergi və digər icbari ödəmələr üzrə rəsmi internet resurslarının girişə icazə ("Asan imza", "E-imza", OTP ) tələb olunan məlumatları).

## İstifadə olunmuş ədəbiyyat:


- Azərbaycan-2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası, 29 dekabr 2012-ci il, http://www.president.az
- Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya”, 2 aprel 2014-cü il, http://www.president.az
- AZƏRBAYCAN RESPUBLİKASINDA AUDİTOR FƏALİYYƏTİNİN İNKİŞAF KONSEPSİYASI (2021-2030-cu İLLƏR) https://audit.gov.az/Upload/Files/2019/2021-2030_konsepsiya_son_13_APREL.pdf
- Azərbaycan Respublikasının Mülki Məcəlləsi
- “Auditor xidməti” haqqında Azərbaycan Respublikasının Qanunu
- BÖYÜK İQTİSADİ ENSİKLOPEDİYA. BAKI, 2013. Səh.9.
- Keyfiyyətə nəzarət, audit, təhlil, digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə BEYNƏLXALQ STANDARTLAR TOPLUSU. Bakı, 2019
- İNNOVASİYA TƏTBİQ EDİLƏN MÜƏSSİSƏLƏRDƏ AUDİTİN APARILMASINA DAİR TÖVSİYƏLƏR (Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2020-ci il 17 dekabr tarixli 326/2 nömrəli qərarı ilə təsdiq edilmişdir) http://audit.gov.az/Upload/Files/2019/shura_326_2_tovsiye.pdf
- Hüseynova A.D. Milli innovasiya sisteminin qiymətləndirmə indikatorları // AMEA Xəbərləri. Elm və innovasiya seriyası, 2011, №1(5), s.15-22
- Urxan Seyidov "İnnovasiyalar: Tətbiq qaydaları” https://ekonews.az/innovasiyalar-tetbiq-qaydalari-meqale/test
- Алгулиев Р.М., Алиев А.Г.. Некоторые аспекты формирования ИКТ-ориентированных национальных инновационных систем // Проблемы современной экономики. Евразийский международный научно-аналитический журнал, 2011, № 4, с. 21-24
- Инновации: понятие, сущность, значение для экономики. Монгуш Ю.Д. Иркутский государственный аграрный университет имени А.А. Ежевского.2016.
- Инновации, новшества и предпринимательство. Библиотекарь.ру.
- Райзберг Б.А., Лозовский Л.Ш., Стародубцева Е.Б. "Современный экономический словарь. - 6-е изд., перераб. и доп. - М." (ИНФРА-М, 2011)
- Финансы - Грязнова А.Г. - Учебник. Год выпуска: 2012 Автор: А.Г. Грязнова, Е.В. Маркина, М.Л. Седова https://institutiones.com/download/books/2065-finansy-gryaznova-uchebnik.html © Экономический портал
- Frane A. Innovation: Measurement and Indicators. Measuring National Innovation Performance. 2014, pp. 9-13

- https://ekslovar.ru/i/innovatsii